**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci il tarixli 93 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 92 saylı Zərdab-Ucar seçki dairəsi üzrə Bıçaqcı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Məmişov Məmiş Naməddin oğlu 2015-ci il yanvarın 1-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsi dairə seçki komissiyasının səslərin təkrar hesablanmasına dair 29 dekabr 2014-cü il tarixli 18/45 saylı qərarının ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Araşdırma prosesində müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, 92 saylı Zərdab-Ucar seçki dairəsi dairə seçki komissiyasının Bıçaqcı bələdiyyəsi üzrə səslərin təkrar hesablanmasının nəticələrinə dair müvafiq qərarının ləğv edilməsi ilə bağlı iddialar öz təsdiqini tapmadığından müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

92 saylı Zərdab-Ucar seçki dairəsi dairə seçki komissiyasının üzvlərinin, həmin dairə üzrə Bıçaqcı bələdiyyəsini əhatə edən 10 saylı seçki məntəqəsi məntəqə seçki komissiyası üzvlərinin izahatlarından görünür ki, səslərin təkrar hesablanması qaydası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təşkil edilmiş, həmin prosesi müşahidə etmək hüququ olan şəxslərin səslərin sayılmasında iştirakı təmin edilmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Bıçaqcı bələdiyyəsini əhatə edən 10 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının protokolundakı səsvermənin nəticələri səslərin təkrar hesablanmasına dair dairə seçki komissiyasının müvafiq protokolunda əks olunan nəticələrlə eynidir.

Bundan başqa səslərin təkrar hesablanması prosesini birbaşa müşahidə etmiş Bıçaqcı bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlərin E.Y.Yusifova, S.E.İbrahimova və müxtəlif siyasi partiyaları təmsil edən müşahidəçilərin Ə.S.Cavadov (ASRP), F.M.İsgəndərov (BAXCP), T.M.Valikov (AVP) və Ə.H.Həsənov izahatlarına əsasən səslərin təkrar hesablanması prosesi Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada həyata keçirilmiş və məntəqə seçki komissiyasının səsvermənin nəticələri haqqında protokolu ilə səslərin təkrar hesablanmasına dair dairə seçki komissiyasının protokolu arasında heç bir uyğunsuzluq olmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a   a l ı r :**

1. 92 saylı Zərdab-Ucar seçki dairəsi üzrə Bıçaqcı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Məmişov Məmiş Naməddin oğlunun 1 yanvar 2015-ci il tarixli 93 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və həmin seçki dairəsi dairə seçki komissiyasının 29 dekabr 2014-cü il tarixli 18/45 saylı Qərarı dəyişdirilmədən saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |